

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 145 (21.555)

*6 avqust 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində kollegiya iclası keçirilib

***Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında qarşıya qoyulan vəzifələrə həsr edilmiş kollegiya iclası keçirilib.***

İclasda 2015-ci il Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin icrasının təsdiqi və Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin 2016-cı ilin birinci yarımilində icrası barədə məsələlər müzakirə edilib. Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov bildirib ki, 2015-ci ildə makroiqtisadi sabitliyin qorunması bütün sahələrdə muxtar respublikanın yüksək templə inkişafına şərait yaradıb. Belə ki, 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə bütün mənbələr hesabına 69 milyon manat proqnoza qarşı 73 milyon 766 min 684 manat vəsait daxil olub. Bu da tapşırığın 106,9 faiz icra olunması deməkdir. 2015-ci ildə büdcə daxilolmalarının 85,6 faizi Vergilər Nazirliyi, 11,8 faizi Dövlət Gömrük Komitəsi tərəfindən, 2,6 faizi isə büdcə təşkilatlarının ödənişli xidmətləri vasitəsilə təmin edilib.

Qeyd olunub ki, 2015-ci ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 366 milyon 700 min manat təyinata qarşı 366 milyon 602 min 965 manat və ya 99,9 faiz icra olunub.

Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin 2016-cı ilin birinci yarısındakı icrası barədə danışan nazir bildirib ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2016-cı ilin ilk altı ayında bütün mənbələr hesabına 31 milyon 532 min manat proqnoza qarşı 34 milyon 858 min 383 manat və ya 110,5 faiz icra olunmaqla, 3 milyon 326 min 383 manat artıq vəsait daxil olub. Büdcə daxilolmalarının 82,4 faizi və ya 28 milyon 712 min 133 manatı Vergilər Nazirliyi, 13,7 faizi və ya 4 milyon 788 min 293 manatı Dövlət Gömrük Komitəsi, 3,4 faizi və ya 1 milyon 185 min 581 manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olub, 172 min 376 manatı və ya 0,5 faizi isə digər daxilolmalar vasitəsilə təmin edilib.



Vurğulanıb ki, 2016-cı ilin 6 ayında muxtar respublikada fəaliyyət göstərən mənzil-kommunal strukturları tərəfindən 1 milyon 592 min 641 manat proqnoza qarşı 1 milyon 585 min 875 manat vəsait daxil olub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 501 min 794 manat, yaxud 46,3 faiz çoxdur.

Cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərclərinə toxunan nazir qeyd edib ki, bu dövrdə büdcə xərcləri 168 milyon 947 min 480 manat təyinata qarşı 168 milyon 620 min 215 manat və ya 99,8 faiz icra olunub. Bu dövrdə sosialyönümlü xərclərə büdcədən 96 milyon 664 min 728 manat vəsait yönəldilib ki, bu da büdcə xərclərinin 57,3 faizini təşkil edir. 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərclərinin 89,4 faizi və ya 150 milyon 794 min 988 manatı cari xərclər, 10,6 faizi və ya 17 milyon 825 min 227 manatı əsaslı xərclər olub.

Maliyyə naziri öz çıxışında maliyyə nəzarətinin daha da artırılması, muxtar respublikanın müəssisə və təşkilatlarında əmək intizamına, elektrik və qaz avadanlıqlarından istifadə qaydalarına nəzarət olunması məsələlərinə də toxunub.

Sonra hesabat ilində görülmüş işlər və qarşıda duran məsələlər barədə rayon (şəhər) maliyyə şöbələri müdirlərinin hesabatları dinlənilib.

## Aqrar sahədə qazanılan nəticələr ilin uğurla başa çatacağına təminat verir



Cari ilin birinci yarısında “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın, “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrası istiqamətində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilib. 2016-cı ilin məhsulu üçün muxtar respublikada 61 min 526 hektar sahədə əkin aparılıb. Bu da 2015-ci ilin məhsulu üçün əkilmiş sahədən 112 hektar çoxdur. 2016-cı ilin 6 ayında kənd təsərrüfatının ümumi məhsulu 117 milyon 545 min manat təşkil edib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz çoxdur. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 57 ədədi 2016-cı ilin yanvar-iyun aylarında olmaqla, cəmi 1742 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilib.

Bu fikirləri Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasında nazir Elşad Əliyev səsləndirib. Bildirilib ki, hesabat dövründə 72 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 11 ədədi isə nağd yolla satılıb. Ümumilikdə, muxtar respublika üzrə 2843 ədəd texnika mövcuddur ki, onlardan 185 ədədi və ya 6,5 faizi “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində, qalanları isə özəl qurum və ya sahibkarlardadır.

“Ötən dövr ərzində kənd təsərrüfatı bitkilərinin xəstəlik və zərərvericilərinə qarşı mübarizə aparmaq məqsədilə muxtar respublikaya dərman preparatlarının gətirilməsi diqqətdə saxlanılıb, pulsuz olaraq yerli icra hakimiyyəti və bələdiyyələr vasitəsilə sahibkarlara çatdırılıb. Payız əkinlərində müşahidə edilən gəmiricilərə qarşı mübarizə məqsədilə müraciət edən vətəndaşlara dərman preparatları verilib”, – deyən Elşad Əliyev kollegiya iştirakçılarının diqqətinə çatdırıb ki, muxtar respublikada taxıl sahələrində alaq otlarının yayılması və inkişafı çox olan sahələrdə herbisidlərlə mübarizə işi aparılması məqsədilə müşahidələr aparılaraq sahibkarlara məsləhətlər verilib və alaq otlarına qarşı 11000 hektardan artıq sahədə kimyəvi mübarizə işləri təşkil edilib.

Vurğulanıb ki, torpaqların münbitliyini artırmaq məqsədilə 2016-cı ilin əvvəlində “Araz” Elm İstehsalat Birliyinin aid şöbəsi tərəfindən rayonlar üzrə gübrə tələbatı müəyyən edilib. Əkilib-becərilən bitkilərdən yüksək və keyfiyyətli məhsul götürülməsi, payızlıq və yazlıq əkinlərin üzvi və mineral gübrələrlə aqrotexniki qaydalara uyğun gübrələnməsi haqqında fermer və torpaq mülkiyyətçilərinə televiziya və mətbuat vasitəsilə ətraflı məlumatlar verilib.

Toxumçuluq kənd təsərrüfatının vacib sahələrindən biridir. Hazırda muxtar respublikada 5 toxumçuluq və 1 tingçilik təsərrüfatı fəaliyyət göstərir. Ötən il həmin təsərrüfatlarda istehsal edilmiş buğda toxumları üçün onlara 150 min manat subsidiya ödənilib. Toxumçuluq təsərrüfatlarında 1000 tondan artıq toxum təmizlənib və bu işlər davam etdirilir.

Elşad Əliyev bildirib ki, cari ilin may ayında 3854 nəfər buğda istehsalçısına becərdikləri 26792 hektar buğda sahəsi üçün 1 milyon 72 min manat, yazlıq əkinlər üçün isə iyul ayında 1877 nəfər sahibkara 26926 hektar sahə üçün 1 milyon 346 min manat dəyərində yardımlar verilib.

2016-cı ilin 6 ayında, ümumilikdə, kənd təsərrüfatı üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 7 milyon 234 min manat kredit verilib. Bunun da 392 min manatı və ya 5,4 faizi bitkiçilik sahəsinə, 13 min manatı və ya 0,2 faizi bağçılıq sahəsinə, 6 milyon 96 min manatı və ya 84,3 faizi heyvandarlıq sahəsinə, 258 min manatı və ya 3,5 faizi arıçılıq sahəsinə, 475 min manatı və ya 6,6 faizi quşçuluq sahəsinə ayrılmış kreditlərdir.

Vurğulanıb ki, ötən dövr ərzində muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2016-cı ilin məhsulu üçün 31579 hektar sahədə taxıl əkilib. Artıq taxıl biçini başa çatıb. Sahələrdən bol məhsul götürülüb.

Məruzə ətrafında nazirliyin şöbə müdiri Ədalət Hüseynovun, Akademik Həsən Əliyev adına “Araz” Elm İstehsalat Birliyinin direktoru Bəhruz Bayramovun çıxışları olub.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində də cari ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.***

## Birinci yarımildə çağırış kampaniyaları mütəşəkkilliklə yerinə yetirilib

Tədbiri xidmətin rəisi, general-mayor Səxavət Salmanov açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarının icrasına uyğun olaraq, 2016-cı ilin birinci yarısında çağırış kampaniyaları mütəşəkkilliklə və tam həcmdə yerinə yetirilib. Həmin dövrdə 2000-ci ildə anadan olmuş vətəndaşların 2309 nəfəri ilkin qeydiyyata alınıb və bu istiqamətdə işlər davam etdirilir. Qeyd olunub ki, 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə və şöbələri tərəfindən hərbi hissələrin, eləcə də qanunla müəyyən edilmiş digər silahlı birləşmələrin hərbi qulluqçularla komplektləşdirilməsi işi davam etdirilib. Eyni zamanda bəhs olunan dövrdə xidmətin rayon (şəhər) idarə və şöbələrinə 1 nəfər zabit, 2 nəfər gizir, 13 nəfər mülki işçi qəbul edilib. Xidmət rəisi bildirib ki, ehtiyatda olan zabit, gizir, çavuş və əsgərlərin hərbi xidmətə qəbulu işi ordu komandanlığının sifarişi əsasında müntəzəm olaraq təşkil edilir və müvafiq qərarlar qəbul olunur. Cari ilin birinci yarısında 145 nəfər hərbi vəzifəlinin sənədi hazırlanaraq hərbi hissələrə göndərilib ki, onlardan 14 nəfəri qadınlardır.

Vurğulanıb ki, bu dövrdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Gənclər və İdman Nazirliyinin birgə planı əsasında gənclərdə vətən-



pərvərlik hissinin artırılması məqsədilə aprel ayında Culfa rayonunda yerləşən “N” hərbi hissəyə, iyun ayında isə Naxçıvan şəhərində yerləşən sərhəd diviziyasına gənclərin ekskursiyaları təşkil olunub, onlar hərbi hissələrin maddi-texniki bazası, müxtəlif təyinatlı silahlarla, o cümlədən əsgər yataqxanaları ilə tanış olub və əsgər yeməkxanalarında nahar ediblər. Bundan əlavə, həmin dövrdə muxtar respublika məktəbliləri arasında “Şahin” və “Sərhəd” hərbi idman oyunlarının keçirilməsi diqqətdə saxlanılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Müşavirədə əldə olunmuş müsbət nəticələrlə yanaşı, işdə yol verilmiş nöqsanlar da müzakirə edilib, qarşıda duran vəzifələrdən danışılıb.

## Babək rayonunda seminar-müşavirə

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Babək rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğum, nikah və ölüm qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə riayət olunması ilə bağlı seminar-müşavirə keçirib.***

Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açıb.

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli Fərmanına əsasən, rayon mərkəzindən kənarda yerləşən qəsəbə və kənd sakinləri üçün daha münasib şəraitin yaradılması, onların rahatlığının təmin edilməsi, doğum, nikah və ölüm qeydiyyatının daha operativ həyata keçirilməsi məqsədilə nikahın, doğumun və ölümün dövlət qeydiyyatını rayon (şəhər) qeydiyyat şöbələri ilə yanaşı, icra hakimiyyətlərinin nümayəndəlikləri də aparır.

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında icra nümayəndəlikləri üçün seminarlar təşkil edilib və onlar müvafiq normativ-hüquqi aktlardan çıxarışlarla təmin olunublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində regionumuzun bütün rayonlarında yerli icra nümayəndəlikləri üçün yeni inzibati binalar tikilib və müasir standartlara uyğun iş şəraiti yaradılıb. Məhz bu diqqət və qayğı nəticəsində Babək rayonunun icra nümayəndəlikləri də müasir inzibati bina və iş şəraiti ilə təmin olunublar.

Qeyd edilib ki, yaradılan bu şərait icra nümayəndələrinin üzərinə mühüm vəzifələr qoyur. Hər bir icra nümayəndəsi “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, notariat haqqında qanunun və kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə nikah qeydiyyatı ilə bağlı könüllülük prinsipi daim diqqətdə saxlanılmalı, vətəndaşların şəxsən iştirakı təmin edilməli və nikah qeydiyyatı üçün müraciət etmiş vətəndaşların ərizəsi qəbul edilən zaman tibbi müayinə arayışlarının alınması təmin olunmalıdır. Hər bir icra nümayəndəsi tərəfindən notariat hərəkətlərinə görə qəbul edilmiş dövlət rüsumu iki bank günü ərzində dövlət büdcəsinə köçürülməli, notariat əməliyyatı zamanı vətəndaşların şəxsən iştirakı təmin edilməlidir.

Hər bir icra nümayəndəsi qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməlidir.

Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov yekun vurub.

Qeyd edək ki, analoji tədbir Culfa rayonunda da keçirilib.

**Xəbərlər şöbəsi**

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə dair keçirilən iclası idarənin sədri Səbuhi Məmmədov açaraq məruzə edib.***

Qeyd olunub ki, 2016-cı ilin ilk 6 ayı ərzində bank və kredit təşkilatları tərəfindən 20 milyon 411 min manat kredit verilib. Bu vəsaitlərin 6 milyon 805 min manatı qısamüddətli, 13 milyon 606 min manatı isə uzunmüddətli kreditlərdir. Ötən müddət ərzində aqrar sahənin inkişafı digər sahələr kimi, diqqət mərkəzində saxlanılıb və bu istiqamətdə verilmiş kreditlər portfelin 35 faizini təşkil edib. Bu isə, öz növbəsində, ənənəvi istehsal və kiçik emal sahələrinin yaradılmasında stimul olub, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli bazar hesabına ödənilməsində mühüm rol oynayıb.

Vurğulanıb ki, banklar tərəfindən 2016-cı ilin ilk 6 ayı ərzində 2 min 85 hüquqi, 55 min 689 fiziki şəxs olmaqla, 57 min 774 müştəriyə xidmət göstərilib. Xidmət olunan hesabların 51 min 436-sı işlək hesab olub ki, onların da 1381-i hüquqi, 50 min 55-i fiziki şəxsdir. Təkcə 2016-cı ilin birinci yarısında 32 hüquqi, 9 min 622 fiziki şəxs olmaqla, 9 min 654 müştəriyə yeni bank hesabı açılıb. Açılmış bank hesablarının 9 min 654-ü işlək hesablardır ki, onların 32-si hüquqi, 9622-si isə fiziki şəxslərə məxsusdur.

Səbuhi Məmmədov bildirib ki, cari ilin birinci yarısında Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 209 milyon 212 min manat nağd pul dövriyyəyə buraxılıb. Bu rəqəm ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 857 min manat azalıb və ya 97,3 faiz olub. Bu isə onu göstərir ki, muxtar respublikada fəaliyyət göstərən bankların kassasına daxil olan nağd pulun həcmi artıb, xidmət olunan müəssisə və təşkilatların nağd pula olan tələbatı azalıb. Qeyd olunub ki, bu müddət ərzində nağdsız ödənişlərin iqtisadi artıma təsirinin stimullaşdırılması məqsədilə ödəniş avadanlıqları real sektorun bütün sahələrinə mütənasib şəkildə paylanılıb və ehtiyac olan sahələrdə də quraşdırılması işləri davam etdirilib. Əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 1 yanvar 2016-cı il tarixə 500-ü Naxçıvan şəhəri, 544-ü isə kənd və rayon mərkəzlərində olmaqla, 1044 ədəd təşkil edirdisə, ilin ilk altı ayı ərzində bu göstəricidə 11 faiz artım olub, 41-i Naxçıvan şəhəri, 71-i isə rayon və kənd mərkəzlərində olmaqla, 112 ədəd yeni avadanlıq quraşdırılıb. Bununla birlikdə nağdsız hesablaşmalar zamanı əhaliyə yüksək səviyyəli xidmətin göstərilməsi və gecikmələrin qarşısının alınması məqsədilə Visa Paywave qəbuletmə funksiyasına malik 7 ədəd POS-terminal da Naxçıvan şəhərində əhalinin daha çox müraciət etdiyi iri ticarət obyektlərində yerləşdirilib. Digər ödəniş vasitələrindən sayılan bankomatların sayında bu müddət ərzində 1 ədəd artım olub və 1 iyul 2016-cı il tarixə 56-sı Naxçıvan şəhəri, 43-ü kənd və rayon mərkəzlərində olmaqla, 99 ədəd təşkil edib.

Vurğulanıb ki, regionda fəaliyyət göstərən banklar tərəfindən elektron ödəniş vasitələrinin daha geniş əhali kütləsinə çatdırılması məqsədilə müxtəlif dövrlərdə şəxsi kartların alınmasına və POS-terminal xidmət haqlarına güzəştlər tətbiq edilib. Bu da, öz növbəsində, muxtar respublikada ödəniş kartlarının artmasına və elektron ödəniş şəbəkəsinin daha da genişləndirilməsinə öz müsbət təsirini göstərir. 2016-cı ilin ilk altı ayında nağdsız ödəniş dövriyyəsi 14 milyon 305 min manat təşkil edib ki, bu göstərici də ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə artıqdır.

Sonra Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Tural Şirəlizadənin, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Azər Məmmədovun, "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin rəisi Oqtay Qurbanovun çıxışları olub.

İclasa Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov yekun vurub.

2016-cı ilin birinci yarısında muxtar respublika ərazisində yerləşən və 303,52 milyon kubmetr su tutumuna malik olan sututarlara 278 milyon kubmetr su ehtiyatı toplanıb. Boru və suvarma xətlərinin çəkilməsi, nasos stansiyalarının quraşdırılması, mövcud stansiyaların təmiri əkin sahələrinin suvarılmasında olan çətinlikləri aradan qaldırıb. Suvarılan ərazilərin şoranlaşmasına yol verməmək üçün, birinci növbədə, şoranlaşmanı törədən səbəblərə qarşı tədbirlər hazırlanıb. Əkin sahələrində şoranlaşma və bataqlaşmanın qarşısını almaq üçün açıq və qapalı drenajlarda, kollektorlarda, kanal və arxlarda mütəmadi olaraq lildən təmizlənmə və təmir işləri aparılıb. Belə ki, 88,4 kilometr magistral kanal, 297,4 kilometr ara arxları, 18,2 kilometr kollektor, 4,7 kilometr açıq drenaj kanalı lildən təmizlənərək işlək vəziyyətə gətirilib.

Bütün bunlar barədə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollegiya iclasında ətraflı söhbət açılıb.

Komitə sədri Əsgər Əsgərov bildirib ki, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən 107 hektar sahədə tikilən qapalı suvarma şəbəkəsində müxtəlif diametrli borularla 4060 metr qapalı boru xətti çəkilib, 28 ədəd siyirtmə, 27 ədəd hidrant quraşdırılıb. İşlər davam edir.

Muxtar respublika kəndlərinin içməli su təminatını yaxşılaşdırmaq üçün bir sıra işlər görülüb. Yeraltı su mənbəyi olan kəhriz kaptajlarının təmir-bərpası və yenilərinin tikintisi işləri davam etdirilib.

Vurğulanıb ki, suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən də geniş istifadə edilir, onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikanın şəhər və rayonlarında 332 kəhrizdən istifadə edilir. Kəhrizlər İdarəsi tərəfindən 8 ədəd kəhrizdə təmir-bərpa işləri başa çatdırılıb, 5 ədəd kəhrizdə təmir-bərpa işləri davam edir. Bildirilib ki, komitənin balansında olan, muxtar respublikada ikinci suvarma mənbəyi kimi istifadə edilən 102 nasos stansiyasının 100 ədədi və 887 ədəd subartezian quyusunun 820 ədədi istismar olunmaqdadır. 359 ədəd subartezian quyusunda təmir işləri həyata keçirilib. Bunlardan 311 ədəd subartezian quyusu əsaslı təmir olunub, 47 ədəd subartezian quyusuna yeni nasos quraşdırılıb, 1 ədəd subartezian quyusu bərpa edilərək balansa götürülüb. Uzun müddət işləməyən 3 ədəd sub-



artezian quyusu bərpa edilib, 2 ədəd yeni subartezian quyusu qazılıb.

Diqqətə çatdırılıb ki, tikintisinə 1 aprel 2013-cü ildə başlanmış "Naxçıvan Muxtar Respublikasında Selə qarşı Tədbirlər, Suvarılan Ərazilərin Modernləşdirilməsi və Genişləndirilməsi" layihəsi çərçivəsində Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad rayonları ərazilərində seldən müdafiə məqsədilə Araz çayı boyunca daşdan sahilbərkitmə işləri aparılıb. Sədərək rayonu ərazisində 6,8 kilometr, Şərur rayonu ərazisində 14,3 kilometr, Kəngərli rayonu ərazisində 400 metr, Culfa rayonu ərazisində 4,8 kilometr, Ordubad rayonu ərazisində 5,070 kilometr olmaqla, ümumilikdə, 31,5 kilometr sahilbərkitmə bəndi tikilib. Bu günə qədər Araz çayı boyunca, ümumilikdə, 54,1 kilometr sahilbərkitmə işləri aparılıb. "Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğuda gözətçi binasından başqa, bütün binalarda tikinti işləri başa çatdırılıb. Hovuzların dam örtüyü vurulur. Binalarda qurğular quraşdırılır. Təzyiqli boru xəttinin 938 metr hissəsi çəkilib.

Qeyd olunub ki, muxtar respublikada şoranlaşmış və eroziyaya uğramış torpaqların mütəmadi monitorinqi aparılmalı, şoranlaşmış torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması təmin edilməlidir. Əkilmiş sahələrdən bol məhsul götürülməsində suvarmanın düzgün təşkili mühüm əhəmiyyətə malikdir. Su ehtiyatlarından səmərəli istifadə edilməsi və əkin sahələrinin su ilə təchizatının yaxşılaşdırılması üçün sudan istifadə edilməsinə nəzarəti gücləndirməli, su bölgüsünə və suvarma rejiminə ciddi əməl edilməsinə nail olmalıyıq. Təsərrüfatlarda mütərəqqi suvarma metodları tətbiq edilməli, su kanalları və arxlar vaxtında təmizlənməli, su itkisi aradan qaldırılmalıdır. Bunun üçün səylə çalışmalı, verilən tapşırıqları layiqincə yerinə yetirməliyik.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Dövlət qulluqçularının andiçmə mərasimi olub

***Dünən Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən statistika orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilən müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının andiçmə mərasimi keçirilib.***

Mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələr kimi, dövlət qulluğu sahəsi də qayğı ilə əhatə olunub, müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi yaradılıb. Dövlət orqanları üçün müasir inzibati binaların tikilib istifadəyə verilməsi, bacarıq və peşəkarlığı yüksək olan dövlət qulluqçularının təltif edilməsi, dövlət idarəçiliyi sistemində yeni texnologiyaların tətbiqi, "Elektron hökumət"in, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin qurulması bunun bariz nümunəsidir.

Muxtar respublikada dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məsələlərindən də danışan İsmayıl Qəribli bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması vətəndaşların mərkəzləşdirilmiş qaydada dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə geniş imkanlar açıb.





Sonra müsabiqəni uğurla başa vurmuş və statistika orqanlarında işə başlamış namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə and içdilər.

Sonra andın mətnini imzalayan dövlət qulluqçularına andiçmə vərəqələri təqdim edilib, xatirə şəkli çəkdirilib, mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış olublar.

Xatırladaq ki, komissiya tərəfindən 6 iyun 2016-cı ildə elan edilmiş müsabiqəyə 201 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 213 nəfər sənəd təqdim edib. Müsabiqənin 29 iyun-2 iyul 2016-cı il tarixlərdə keçirilən test imtahanları mərhələsində 205 namizəd iştirak edib, 180 namizəd keçid balını toplaya bilib. 27-30 iyul 2016-cı il tarixlərdə keçirilən müsahibə mərhələsində iştirak edən 142 namizəddən 124-ü müvəffəqiyyət qazanaraq vakant vəzifələrə təyin olunub.

Həmin gün Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının akt zalında Naxçıvan Muxtar Respublikasının inzibati ərazi dairələrində statistika uçotunun aparılması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan edilmiş müsabiqədən keçən şəxslərlə görüş və seminar keçirilib.

Tədbiri Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov açaraq bildirib ki, son dövrlərdə komitədə kadr potensialının və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində komitənin 2 yeni idarəsi – Naxçıvan Şəhər və Kəngərli Rayon Statistika idarələri yaradılıb, komitə aparatına yeni ştat vahidləri verilib. Ötən dövr ərzində Dövlət Statistika Komitəsinin aparatı və Naxçıvan Şəhər Statistika İdarəsi üçün yeni bina istifadəyə verilib, Şərur, Kəngərli, Ordubad, Şahbuz və Sədərək Rayon Statistika idarələrində çalışan işçilərin iş şəraiti yaxşılaşdırılıb. Bu gün muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sosial sahənin inkişafı üzrə aparılan tədbirlərin genişmiqyaslılığı rəsmi statistikanın da davamlı qaydada təkmilləşdirilməsi zərurətini yaradıb. Məhz bu zərurət nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 1 iyun 2016-cı il tarixdə Sərəncam imzalanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamının icrası istiqamətində komitə aparatında İnzibati ərazilər üzrə məlumatların statistikası və təhlili şöbəsi, şəhər və rayon statistika idarələrində isə inzibati ərazi dairələri üzrə məlumatların toplanması şöbələri yaradılıb. İnzibati ərazi dairələri üçün aktual statistik göstəriciləri özündə əks etdirən və beş bölmədən ibarət təsərrüfatbaşına kitab hazırlanıb. Təsərrüfatbaşına kitabın birinci bölməsində təsərrüfat üzvlərinin siyahısı, ikinci bölmədə təsərrüfatın xüsusi mülkiyyətində olan heyvanların, quşların və arı ailələrinin sayı, üçüncü bölmədə təsərrüfatın xüsusi mülkiyyətində və ya istifadəsində olan torpaq, dördüncü bölmədə təsərrüfatın xüsusi mülkiyyətində və ya istifadəsində olan kənd təsərrüfatı texnikası, beşinci bölmədə isə təsərrüfata məxsus tikililər qeyd olunub. Təsərrüfatbaşına kitabın işlənməsinə dair göstərişlər hazırlanıb və işin normal aparılması üçün müvafiq izahlar verilib. Belə ki, hər hansı bir statistik göstəricinin əldə olunması üçün müəyyən olunmuş vaxtda müşahidələr və ya seçmə qaydada sorğular aparılmaqla göstəricilər əldə olunurdusa, bundan sonra hər bir inzibati ərazi dairəsində müəyyən olunmuş sayda statistika əməkdaşının işə başlaması həmin ərazidə baş verən hər hansı bir yeniliyin və ya dəyişikliyin operativ uçota alınmasına imkan verəcəkdir.

Komitə sədri qeyd edib ki, bu gün keçirilən görüş və seminarla yanaşı, yaxın günlərdə şəhər və rayonlarda komitə aparatının aidiyyəti şəxslərinin iştirakı ilə geniş tərkibdə işçilərin peşə hazırlığı üzrə seminarlar təşkil olunacaq.

Tədbirdə komitənin Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Məhərrəm Məmmədovun təsərrüfatbaşına kitaba əlavə edilmiş yeniliklər və işin mahiyyəti haqqında çıxışı olub.

Komitənin İnzibati ərazilər üzrə məlumatların statistikası və təhlili şöbəsinin müdiri Əliheydər Qurbanlı təsərrüfatbaşına kitabın işlənilməsi haqqında tədbir iştirakçılarına slayd vasitəsilə geniş məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Səbuhi HÜSEYNOV**

*2002-ci il avqustun 7-də AMEA Naxçıvan Bölməsi təsis edilib*

# Naxçıvanın elm məbədi



*Elmin inkişafını daim diqqət mərkəzində saxlayan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşkili və formalaşdırılması ilə əlaqədar ulu öndərin sədrliyi ilə 2002-ci il avqustun 12-də Naxçıvan Muxtar Respublikasında müşavirə keçirilmişdir. Müşavirədə bölmənin yaradılması zəruriliyindən bəhs edən ümummilli lider Heydər Əliyev demişdir:* ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var..."***

Naxçıvanda keçən əsrin 70-ci illərindən fəaliyyət göstərən elmi qurumların – Naxçıvan Regional Elmi Mərkəzin, Naxçıvan Elmi-Tədqiqat Bazası və Şamaxı Astrofizika Rəsədxanasının Batabat və Ağdərə stansiyalarının bazasında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi təşkil olundu. Bölmənin tərkibində altı elmi-tədqiqat müəssisəsi – Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası yaradıldı.

Ötən dövrdə muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində Naxçıvan Bölməsi formalaşmış, maddi-texniki bazası gücləndirilmiş, alim və tədqiqatçılar üçün geniş fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. 2003-cü ildə əsas bina, 2004-cü ildə Təbii Ehtiyatlar İnstitutunun və bölmənin digər strukturlarının yerləşdiyi bina və 2005-ci ildə Bioresurslar İnstitutunun binası elmi işçilərin istifadəsinə verilmişdir. Nəbatat bağının ərazisi genişləndirilmiş, ikimərtəbəli inzibati bina tikilmişdir. Genefond təcrübə sahəsində də abadlıq və quruculuq işləri qısa müddətdə həyata keçirilmişdir. Bitkilərdən dərman preparatları hazırlamaq üçün avadanlıq alınmış, Batabat Astrofizika Rəsədxanası üçün yeni ikimərtəbəli inzibati bina tikilmişdir. Təbii Ehtiyatlar və Bioresurslar institutlarındakı laboratoriyalar lazımi cihaz və avadanlıqlarla təmin edilmiş, bölmənin "Tusi" nəşriyyatı, Elektron Kitabxanası yaradılmışdır. Naxçıvan Bölməsinin 2005-ci ildən "Xəbərlər" jurnalı iki seriyadan ibarət nəşr olunmağa başlayıb. 2011-ci ildən "Axtarışlar" jurnalı nəşrə başlamışdır. Hazırda bölmənin tərkibində Doktorantura şöbəsi, Arxeologiya və Etnoqrafiya Muzeyi, 5 ixtisas üzrə fəlsəfə və elmlər doktoru dissertasiyalarının müdafiəsini keçirən Dissertasiya şuraları, Distant Təhsil Mərkəzi, 4 seysmoloji stansiya fəaliyyət göstərir.

139 əməkdaşla, o cümlədən 51 elmi işçi ilə fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsinin ötən dövrdə kadr potensialının artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Bölmə üzrə seçkilər keçirilmiş, AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarına, təhsil müəssisələrinin doktoranturalarına gənc elmi kadrlar göndərilmiş, magistr təhsilli gənclər işə dəvət edilmişdir. Bu diqqət və qayğı sonrakı illərdə də davam etdirildi. Hazırda Naxçıvan Bölməsində işçilərin sayı 247 nəfərə, elmi işçilər 78 nəfərə çatmışdır. Bölmə əməkdaşlarının 2-si AMEA-nın həqiqi üzvü, 5-i müxbir üzvü, 4-ü elmlər doktoru, 50-si fəlsəfə doktoru olaraq fəaliyyət göstərir ki, bu da elmi dərəcəli elmi işçilərin 78 faizini təşkil edir. Əməkdaşlardan 5-i professor, 37-si dosent elmi adını almışdır.

2006-cı ildən AMEA Naxçıvan Bölməsində "Vətən tarixi", "Arxeologiya", "Müəssisələrin təşkili və idarə olunması" ixtisasları üzrə Dissertasiya Şurası fəaliyyət göstərir. Həmçinin 2015-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə bölmənin nəzdində "Botanika" və "Fiziki kimya" ixtisasları üzrə Dissertasiya Şurası təsdiq edilmişdir. Dissertasiya şuralarında həm Naxçıvan Bölməsinin əməkdaşları, həm də müxtəlif elm və təhsil müəssisələrinin əməkdaşları fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları müdafiə etmişlər. Müdafiə edənlər arasında 10 nəfər elmlər doktoru, 74 nəfər isə fəlsəfə doktoru olmuşdur.

2011-ci ildən AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə kadr hazırlığına başlanılmışdır. Bölmə fəaliyyətə başladığı ilk illərdə başqa elm və təhsil müəssisələri bölmə üçün kadr hazırlayırdısa, artıq son illərdə Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikası ilə yanaşı, həm də Azərbaycanın elm və təhsil müəssisələri üçün kadr hazırlayır. Ümumiyyətlə, hər il bu məqsədlə 8-10 nəfərin doktorant və dissertant mövzularının təsdiqinə, elmi istiqamətlərin müəyyən edilməsinə nail olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi... yaranmış şəraitdən məqsədyönlü istifadə etməli, elmi araşdırmalar nəticəli olmalı, onların praktikada tətbiqi işinə diqqət artırılmalı, muxtar respublikanın tarixi, arxeologiyası, təbii sərvətləri və onlardan istifadə imkanları barədə tədqiqatlar davam etdirilməli, fundamental nəşrlər hazırlanmalıdır".***

Müəyyən edilmiş müvafiq profillərə uyğun Naxçıvan Muxtar Respublikasının tarixinin, etnoqrafiyasının, arxeologiyasının, mədəni mühitinin, folklorunun, flora və faunasının, təbii ehtiyatlarının araşdırılmasından əldə olunan mühüm nəticələr nəşr edilmişdir. Belə ki, fəaliyyəti dövründə bölmənin 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan tarixi atlası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", 3 cilddə "Naxçıvanın folkloru antologiyası", "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: hazırkı vəziyyət və perspektivlər", 2 cilddə "Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" kimi fundamental nəşrləri işıq üzü görmüşdür. Ümumiyyətlə, bölmənin fəaliyyəti dövründə əməkdaşların 130 monoqrafiyası, 157 kitabı, 17 metodik vəsaiti, 5866 elmi məqaləsi və konfrans materialı, 183 tezisi, 18 xəritəsi çap olunmuşdur. Bölmə əməkdaşları 4 tövsiyə, 26 buklet hazırlamış, 24 patent almışlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "İxtiraçılıq sahəsində nailiyyətlərə görə III Respublika Müsabiqəsi"ndə bölmə əməkdaşlarının təqdim etdiyi ixtira patenti üçüncü yerin qalibi olmuş, diplom və pul mükafatına layiq görülmüşdür.

Bölmə əməkdaşlarının 14 monoqrafiya, 17 kitab, 1245 məqalə, 58 tezisi xarici ölkələrdə çapdan çıxmışdır. Elmi məqalələrdən 61-i impakt faktorlu jurnallarda çap olunmuşdur. AMEA Naxçıvan Bölməsinin elmi əməkdaşları fəaliyyət dövründə "Azərbaycan Ensiklopediyası"nın, "Cümhuriyyət ensiklopediyası"nın və "Türk dünyası ədəbiyyatçıları ensiklopediyası"nın hazırlanmasında fəal iştirak etmişlər. Ötən dövr ərzində iki seriyada nəşr olunan bölmənin "Xəbərlər" jurnalının 44 nömrəsi, "Axtarışlar" jurnalının isə 20 nömrəsi işıq üzü görmüşdür. Naxçıvan Bölməsinin əməkdaşlarının məqalələri əsasında "İrs", "Naxçıvan", "Yol", "Folklor/Ədəbiyyat", "Qafqaz", "Elm və həyat" jurnallarının xüsusi nömrələri Naxçıvana həsr edilmişdir. Fəaliyyət dövründə bölmə əməkdaşları 2-si beynəlxalq olmaqla, 16 qrant layihəsinin qalibi olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2005-ci il dekabrın 6-da "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamına əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində 1202 tarix və mədəniyyət abidəsi aşkar olunmuş və pasportlaşdırılmışdır. Bu abidələrdən 57-si dünya, 485-i isə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsidir.

Bölmədə müxtəlif elm və tədris müəssisələrinin iştirakı ilə beynəlxalq səviyyəli simpozium və konfranslar keçirilmişdir. Bunlardan "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri", "Naxçıvan bu gün: islahatlar, perspektivlər", "Mustafa Kamal Atatürk – Heydər Əliyev – Naxçıvan: həyat və inkişaf modeli", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ", "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir", "Naxçıvanda Dədə Qorqud", "Naxçıvan qalaları: tarixdə və günümüzdə" beynəlxalq simpoziumlarını qeyd etmək olar. Bölmənin əməkdaşları dünyanın bir çox şəhərində keçirilən 352 beynəlxalq elmi simpozium və konfranslarda iştirak və çıxış etmişlər.

Ötən fəaliyyəti dövründə AMEA Naxçıvan Bölməsinin ABŞ, Fransa, Türkiyə, Qazaxıstan, Rusiya, İran və Gürcüstanın elm və təhsil müəssisələri ilə sıx elmi əlaqələri qurulmuşdur. 2011-ci ildə Özbəkistan Respublikası Elmlər Akademiyasının "Botanika" Elm-İstehsalat Mərkəzi ilə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu arasında qarşılıqlı anlaşma haqqında memorandum, 2014-cü ildə isə AMEA Naxçıvan Bölməsi ilə Polşa Elmlər Akademiyasının Krakov Bölməsi arasında "2014-2016-cı illər üzrə elm sahəsində əməkdaşlıq haqqında" protokol imzalanmışdır.

Bölmə əməkdaşlarından 3 nəfər "Əməkdar elm xadimi", 1 nəfər "Əməkdar müəllim", 1 nəfər "Əməkdar jurnalist" fəxri adına, 7 nəfər "Tərəqqi" medalına, 3 nəfər Prezident mükafatına, 1 nəfər isə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür. Əməkdaşlardan 3 nəfər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Qızıl medal"ına layiq görülmüş, bir nəfər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə, bir nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə" nişanı ilə təltif edilmişdir. Həmçinin ötən dövr ərzində bölmə əməkdaşları dünyada və respublikamızda bir sıra beynəlxalq nüfuzlu elmi-tədqiqat mərkəzləri tərəfindən mükafatlandırılmış, medallara layiq görülmüş, beynəlxalq elmi qurumların üzvü seçilmişlər.

*Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşları qarşıya qoyulan vəzifələrin bundan sonra da yüksək səviyyədə yerinə yetirilməsinə, mövcud elmi potensialdan səmərəli istifadə etməklə elmi-tədqiqat işlərinin müasir tələblər səviyyəsində aparılmasına çalışacaqlar.*

**Orxan Bağırov**
***AMEA Naxçıvan Bölməsinin Elmi-təşkilat şöbəsinin rəisi, aqrar elmlər üzrə fəlsəfə doktoru***

***Şərur Rayon Prokurorluğunun təşkilatçılığı ilə Kürçülü kəndində keçirilən növbəti hüquqi maarifləndirmə tədbirində rayon prokurorunun köməkçiləri – kiçik ədliyyə müşaviri Araz Zöhrabov "Torpaq üzərində mülkiyyət hüququ" və üçüncü dərəcəli hüquqşünas Arif Quliyev "Tikintiyə icazə verilməsi üzrə icraat" mövzularında məruzələr ediblər.***

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

Qeyd olunub ki, şəhərsalma və tikinti fəaliyyəti sahəsində dövlət siyasətinin məqsədi ərazilərin və yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafının təmin edilməsindən, fərdi maraqların qorunmasından, insanların həyatına, sağlamlığına, əmlakına zərər vurulmasının qarşısının alınmasından, ekoloji təhlükəsizliyin və ətraf mühitin mühafizəsinin təmin edilməsindən, tarix və mədəniyyət abidələrinin qorunmasından ibarətdir. Şəhərsalma və tikinti fəaliyyəti sahəsində dövlət səlahiyyətlərinə ərazi planlaşdırılması sənədlərinin hazırlanması və təsdiq edilməsi, bu sənədlərin hazırlanmasına və tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi, tikinti fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsi meyarlarının və qaydalarının müəyyən edilməsi daxildir. Şəhərsalma və tikinti fəaliyyəti sahəsində dövlətin səlahiyyətləri Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Bildirilib ki, icazənin verildiyi vaxtdan 3 il ərzində tikintiyə başlanılmadığı və ya tikinti 3 il ərzində dayandırıldığı hallarda tikintiyə icazə qüvvəsini itirir. Bu dövrdə nəzərdə tutulmuş müddət sifarişçinin yazılı müraciəti əsasında uzadılır. Müddətin uzadılması ilə bağlı hallar icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Hüquqi və fiziki şəxslərin torpaq üzərində xüsusi mülkiyyət hüququ torpaqlar üzərində qanunla və müqavilə ilə müəyyən edilən məhdudiyyətlərə və digər şərtlərə riayət etməklə sahiblik, istifadə və sərəncam hüququdur. Torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ dövlət bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin, habelə hüquqi şəxslərin nizamnamə fonduna verilməsi əsasında yaranır.

Vurğulanıb ki, qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələrinin ayrılmasının xüsusiyyətləri, sənaye obyektlərinin tikintisi, dəmiryol və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi, habelə digər qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələri, əsasən, kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan ayrılır. Göstərilən məqsədlər üçün sahələr, bir qayda olaraq, meşə bitkiləri ilə örtülü olmayan sahələr, yaxud meşəbitmə şəraitinə görə az yararlı və yararsız yerlərdən verilir. Qeyri-kənd təsərrüfatı və qeyri-meşə təsərrüfatı məqsədləri üçün torpaq sahəsinin ayrılması obyektin yerləşdirilməsinin əvvəlcədən layihələşdirilməsindən və torpaq sahəsinin verilməsinin rəsmiləşdirilməsindən sonra aparılır. Qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələrinin ayrılması və istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Qanunvericilikdə, istifadə və icarə müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, torpaq sahəsindən icarə müddəti başa çatdıqdan sonra istifadəçi tərəfindən ucaldılmış müvəqqəti tikili onun hesabına sökülməlidir.

Tədbirdə çıxış edən rayon prokuroru, kiçik ədliyyə müşaviri Tural İbrahimovun məruzəsində isə valideynlərin hüquq və vəzifələrindən bəhs edilib. Bildirilib ki, Azərbaycan Respublikası Konstitusiyasında ailə cəmiyyətin özəyi kimi təsbit edilib. Dövlət ailənin müdafiəsinə onun sosial quruluşunun ictimai özəyi kimi təminat verir. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin II bəndində göstərilir ki, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur və bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Uşaqlar valideynlərin nikahda olub-olmamasından asılı olmayaraq, onların arasında hüquqi münasibətlərin yaranması üçün əsasdır. Uşaqların tərbiyə və təhsilinə aid olan bütün məsələlər, onların hüquq və mənafeləri valideynlərin qarşılıqlı razılığı əsasında həll olunur. Valideynlər uşaqlarından ayrı yaşasalar belə, uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Uşaqlar yetkinlik yaşına çatdıqda, yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericilikdə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin hüquq və vəzifələrinə xitam verilir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Elman MƏMMƏDOV**

# Nuhun çıxdığı, yaşadığı yer və məzarı – AZƏRBAYCANDA



*Tufan, Hələgəz dağı, Gəmiqaya, tufandan sonrakı həyat*

“…Su çəkildi. İş bitdi. Gəmi Cudi dağı üzərində oturdu…”. “…Ey Nuh! Sənə və səninlə birlikdə (gəmidə) olan camaatdan törənəcək (mömin) ümmətlərə Bizdən əmin-amanlıq və bərəkətlər bəxş edilməklə (gəmidən) en” (“Hud” surəsi, ayə 44, 48). Bəzi ehtimallarla görə, tufan 6 ay çəkir. Nəhayət, Nuhun gəmisi uca bir dağın başında oturur. Tufandan sonra həyat yenidən canlanır. Hər dişi və erkək heyvandan balalar törəyib çoxalır, insanlar da Nuhun üç oğlunun nəslindən artırlar. Buna görə, Adəmdən sonra insanların ikinci ulu əcdadı – ikinci ümummilli babası Nuh Peyğəmbər sayılır.

### Bibliyada Nuh tufanı

Əksər dinlərdə və ilahi kitablarda Nuh tufanı qeyd olunur. Bibliyada oxuyuruq: “Həyat nəfəsi olan bütün canlılar cüt-cüt Nuhun yanına gəlib gəmiyə mindi. Allahın Nuha əmr etdiyi kimi, bütün canlılardan erkək və dişi heyvanlar gəmiyə girdilər. Onların dalınca Rəbb gəminin qapısını örtdü” (Yaradılış 7:13-16). Bibliyaya görə, Nuh gəmini 120 il ərzində tikir, gəmiyə minmə isə 7 gün çəkir. Yer üzündə 40 gün 40 gecə yağış yağır (Yaradılış 7:11,12). 365 gündən sonra adamlar və heyvanlar gəmidən çıxırlar. Nuh Allaha qurban kəsir. Yəhudilikdə bu, ilk qurban sayılır. Bundan sonra bir də tufan olmayacağına şəhadət kimi göyqurşağı çıxır. Nuh daşqınına əlavələr olunan uydurmalar… Nuh tufanı haqda Avropa, Asiya, Amerika, Avstraliya və digər bölgə xalqlarında 200-dən artıq əfsanə mövcuddur. Mesopotamiyada aparılan arxeoloji tədqiqatlar zamanı tapılan gil lövhələrdə bütün Yer kürəsini su basması haqda Şumer əfsanəsi yazıldığı aşkar olunub. Lakin bu əfsanələrdə də uydurmalar, həqiqətlə uzlaşmayan “faktlar” çoxdur. Bütün dünyanı su basıbmı? Əfsanələrdə olduğu kimi, Tövratda da bildirilir ki, Nuh tufanı bütün Yer kürəsini bürüyüb. Lakin “Quran” bu tufanın yalnız Nuhu inkar edən qövm üçün göndərildiyini bəyan edir. Yəni bu tufan müəyyən coğrafi ərazidə baş verib.

Belə ki, qazıntılar nəticəsində məlum olur ki, Nuh tufanı bütün Yer üzündə deyil, Mesopotamiya ovalığında, müasir İraq ərazisində baş verib. Buradan məlum olur ki, “Quran” versiyası elmi faktlarla tam şəkildə üst-üstə düşür.

Tufan bütün Yer üzündə baş verməyib. Nuh tufanının e.ə. IV-III minillikdə baş verdiyi güman edilir. XX əsrdə arxeoloqlar Nuh tufanının izlərini tapmaq üçün genişmiqyaslı tədqiqatlara başlayır. Nəticələr uğurlu olur! Tufanın izləri qədim Mesopotamiyanın 4 şəhərində tapılır. Tufan zamanı Mesopotamiyanın düzənlik hissəsi, Elamdan Suriya yaylasınadək su altında qalıb. Məlum olur ki, bu 4 şəhərin mədəniyyətləri güclü tufan nəticəsində məhv olub. Arxeoloji qazıntılar zamanı qədim dövrə aid qəbiristanlıqla, əmək alətləri ilə yanaşı, lilin çıxması tədqiqatçıların təəccübünə səbəb olub. Burada tapılan alətlər və saxsı qabların üzərindən lil təbəqəsi təmizləndikdən sonra, Mesopotamiyanın bu bölgələrində tufan olduğu təsdiqlənir. Lil nümunələrinin mikroskopik analizi göstərir ki, qalın lil təbəqəsi buraya çox güclü tufan nəticəsində çöküb. Özü də burada aşkar olunan lil kütləsinə təkcə Mesopotamiyada rast gəlinir. Bu mühüm fakt onu sübut edir ki, tufan yalnız Mesopotamiya düzənliyində baş verib. Beləliklə də, elmi şəkildə sübut olunur ki, Nuh tufanı əfsanələrdə deyildiyi kimi bütün dünyanı deyil, müəyyən arealı əhatə edib.

### Nuhun gəmisi Azərbaycanda enib! Naxçıvan Nuh çıxan torpaqdır

Bu həqiqəti aparılan ciddi elmi araşdırmalar və keçirilən beynəlxalq elmi simpozium da təsdiq edir. Qoca Şərqin qapısı Naxçıvan təkcə Azərbaycanın deyil, həm də dünyanın ən qədim yaşayış məskənlərindəndir.

Nuh Peyğəmbər, Dünya tufanı və onun tərəfdarları ilə əlaqədar faktların Naxçıvanla bilavasitə bağlılığı isə bu torpağın qədimliyini bir daha sübut edir. 7500 il bundan əvvəl baş verən Dünya tufanı Nuh və ona iman gətirənlərin mindiyi gəminin Naxçıvanda quruya çıxması və insanların burada məskən salması dünya şöhrətli alimlərin araşdıraraq gəldikləri elmi nəticələrdə də öz əksini tapıb.

Qədim yunan alimi Klavdi Ptolomey bizim eranın II əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlamış, XI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas əl-Şərifi nəinki Nuh Peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat verib. Eradan əvvəl I əsrdə yaşamış yəhudi alimi İosif Flavinin də bu barədəki araşdırmaları tam həqiqətə uyğundur. Alim Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab edir. Rus tədqiqatçılarından İ.Şopen, V.M.Sısoyev və K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləyiblər. XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə maraqlı məlumatlar verir. O qeyd edir ki, əfsanəvi tufandan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hətta Nuh Peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. Keçən əsrin əvvəllərində, daha doğrusu 1919-1920-ci illərdə məşhur realist rəssam Bəhruz Kəngərli Nuh Peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini altı formada naturadan kətan üzərinə köçürüb.

Onu da qeyd edək ki, bəzi mənbələrdə Nuh türbəsi ikimərtəbəli kilsə kimi qələmə verilib. Ancaq bu yanlış fikirdir. AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, akademiyanın müxbir üzvü, arxeoloq Vəli Baxşəliyev deyir ki, kilsələrin hamısı birmərtəbəli olur. Bu ikimərtəbəli memarlıq abidəsi isə yalnız müsəlman türbələri üçün xarakterikdir. Və bizim o ərazidə apardığımız tədqiqatlar bunu bir daha sübut elədi ki, bu abidə müsəlman memarlığının bir nümunəsidir. Tarixi ədəbiyyatda bu abidənin qədim dövrdə mövcud olduğu, VIII əsrdə bərpa edilməsi ilə bağlı məlumatlar maraq doğurur. Araşdırmalar zamanı məlum olub ki, abidə XII əsrdə də müsəlman-səlcuq memarlıq üslubunda yenidən tikilib. Təbii aşınmalar nəticəsində abidə yenidən dağılıb. Qazıntılar zamanı yalnız abidənin bünövrəsi aşkara çıxarılmışdır.



### Sübutlar

Ümumiyyətlə, Nuh Peyğəmbərin Naxçıvanda yaşaması və burada vəfat etməsi barədə yüzlərlə elmi sübut və dəlil var. Ancaq bu zaman belə bir sual ortaya çıxır: bəs son vaxtlara kimi bu abidə barədə niyə söhbət açılmayıb? Çünki Sovet hakimiyyətinin elə ilk illərində həyata keçirilən ideoloji siyasət nəticəsində Naxçıvanın ən qədim dövrlərindən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə kimi Nuh Peyğəmbərin məzarüstü türbəsi də məhv edilib. Düzdür, Nuh Peyğəmbərin qəbirüstü türbəsi Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir. Lakin Sovet Birliyi dövründə “Nuh-Naxçıvan” mövzusu qadağan olunmuş, elmi ədəbiyyatlarda işlədilməsinə icazə verilməmişdir. Məsələn, Naxçıvanda nəşr olunan “Sovet Naxçıvanı” qəzetinin 1986-cı il 30 yanvar tarixli nömrəsində Nuhun gəmisinin Naxçıvan ərazisindəki Gəmiqayada quruya çıxması, buradakı runik yazılarda gəmi təsvirinin verilməsi barədə fikirləri, bütövlükdə Nuh Peyğəmbər və Naxçıvan əlaqələrinə dair elmi təhlilləri özündə əks etdirən “Xalqımızın mənlik heykəli” adlı yazının dərc edilməsi mərkəzi hakimiyyət tərəfindən ciddi etirazla qarşılanıb, “Nuh əyyamı” dövrünün əfsanəvi süjetini milli iftixar mövzusu kimi qələmə verdiyinə görə” qəzetin rəhbərliyi ciddi cəzalandırılıbdır.

Qədim Naxçıvanda Naxçedəniz, Haçadağ, Gəmiqaya, Nəbi yurdu, Nuhtaban, Nəhəcir, Nəsirvaz, Nehrəm, Nuh türbəsi və sair toponimlərin Nuhla bağlılıq ehtimalı tarixi qaynaqlarda öz əksini tapıb. Qeyd olunan toponimlərin Naxçıvan diyarındakı məşhur Gəmiqayaya yaxın ərazilərdə olmasını Nuhun tufanı hadisəsinin bu regionla bağlılığı ehtimalını daha da qüvvətləndirir.

Göründüyü kimi, özündə qədim tarixin izlərini əks etdirən çoxsaylı toponimlər Naxçıvan diyarının Dünya tufanı, Nuh hadisəsi ilə əlaqədar olduğunu açıq-aşkar diktə edir. Naxçıvan sözünün etimologiyası ilə





bağlı aparılan elmi araşdırmalar da bir daha sübut etdi ki, Naxçıvan sözü “Nuh” ifadəsi ilə bağlıdır və “Naxçıvan” “nuhçular”ın, “Nuh tərəfdarlarının məskəni” deməkdir.

Naxçıvan ərazisindəki Kiçik Qafqaz dağları silsiləsinin ən uca nöqtəsi olan, 3906 metr yüksəklikdə yerləşən Qapıcıq zirvəsi bəşəriyyətin babası həzrəti Nuh Peyğəmbərə dünya tufanından sonra torpağa qədəm basmaq üçün açılmış kiçik qapı, yaxud ilk giriş yeridir. Üstü ilin bütün fəsillərində qarla örtülü olan Qapıcıq zirvəsi sanki dünya sularında Nuh Peyğəmbərin xilaskarlıq simvolu kimi qaldırdığı ağ bayrağın rəmzi kimi də görünür. Qapıcıq, eyni zamanda Nuh Peyğəmbərin əfsanəvi gəmisinin birinci limanı, ilk dayanacağı da deməkdir. Qapıcıq zirvəsində Gəmiqayadan qaynayıb çıxan Baca bulağı çeşməsi insanlığı Dünya tufanından xilas etmiş Nuh Peyğəmbərin şərəfinə qaldırılmış həyat piyaləsinə bənzəyir.

Qapıcıq nöqtəsindən süd kimi köpüklənərək üzüaşağı iki min metrədək məsafədə Nəsirvaz kəndinə qədər böyük sürətlə axan Baca bulağı suları sanki Gəmiqayanın zirvəsinə qalxmaq üçün istifadə olunan alpinist kəndiridir. Ordubad rayonundakı Nəsirvaz kəndinin adı “Biləqamış” dastanında Nuh Peyğəmbərlə əlaqədar təsvir olunan Nisr dağını yada salır. Gəmiqayanın yüksək ətəyindəki Nəbi yurdu (Nuh-Nəbi yurdu) Dünya tufanından sonra artıq burada ilkin məskunlaşmanın başlandığı məkan mənasını daşıyır. Bu ərazidəki Qaranquş yaylağı Nuh Peyğəmbər əsatirindəki dimdiyində dəfnə yarpağı gətirən, yaxud caynaqları palçığa batmış vəziyyətdə gəmiyə geri qayıtmış qaranquş əhvalatının yadigarıdır. Gəmiqaya rəsmlərində bir neçə vəziyyətdə qaranquş təsvirləri qeydə alınıb. Gəmiqaya yüksəkliyinin sağ yaxasındakı Xəzər obası toponimi Nuh Peyğəmbərin oğlu Yafəsin törəmələrindən birinin adını yaşatmaqla yanaşı, ilkin məskunlaşma dairəsinin genişlənməsini əks etdirir.

Haçadağ-İlandağ Nuh Peyğəmbərin Dünya tufanının başa çatdığını və bəşəriyyətin yeni həyatının başlandığını elan etdiyi möhtəşəm xitabət kürsüsü – Elandağı təəssüratı yaradır. Haçadağdan üzü arana doğru olan ərazidəki Peyğəmbər ayağı sahəsindəki 52 ayaq izi yeri, yaxud təsviri həyati proseslərin ilkin məskunlaşmadan oturaq məkana doğru inkişaf etdiyini əks etdirir. Nəhayət, Naxçıvan şəhərinin cənub hissəsindəki Nuhdaban, adından da göründüyü kimi, Həzrəti Peyğəmbərin ayaq saxladığı, dabanını yerə basdığı, yəni oturaq həyat qurduğu yerin adıdır. Nuh Peyğəmbərin məzarının da Nuhdaban adlı sahədə olması buranın çox qədim tarixə malik olduğunu göstərir.

Xalq arasında yaşayan rəvayətlərdə Naxçıvanqalanın, təxminən, iki min dörd yüz il əvvəl Naxçıvan şəhərinin Makedoniyalı İskəndərin hərbi yürüşlərindən qorunmaq üçün tikildiyini bildirən məlumatlar da yer almaqdadır. Bununla belə, bizim ehtimalımıza görə, bəlkə də, bu qala ilkin olaraq Nuh Peyğəmbərin məzarının – mavzoleyinin mühafizəsi üçün salınmış, tədricən Nuhdabanın-Nuhçıxanın-Naxçıvanın müdafiəsi məqsədilə genişləndirilmiş və inkişaf etdirilibdir. Beləliklə, Qapıcıqdan, Gəmiqayadakı Nəbi yurdundan başlamış məskunlaşma prosesləri Nuhdaban oturaq məkanının salınması ilə başa çatıb.

Nuh Peyğəmbərin vəfatından sonra naxlar, nuhlar, peyğəmbərin tərəfdarları bu yeri onun şərəfinə Nuhçıxan adlandırıblar. Naxçıvan şəhər adı da Nuhçıxandan yaranıb. Məsafə etibarilə çox yaxın ərazidə qədim Duzdağ mədənlərinin yerləşməsi Naxçıvanda şəhərtipli yaşayışın formalaşmasında mühüm rol oynamışdır. Mənbələrdə Duz dağının da Nuh Peyğəmbər tərəfindən aşkar edilməsi və işə salınması haqqında məlumatların olması Naxçıvanda ilkin şəhərin yaranmasının qədim tarixinə dair mövcud təsəvvürləri elmi şəkildə tamamlayır. Böyük yaşayış məskəni üçün zəruri sayılan ibadət yerinin – Əshabi-Kəhf ziyarətgahının da Nuhdabana çox yaxın məsafədə olması Naxçıvan ilkin şəhəri haqqında anlayışlara dayaq verir. Hətta Nuhdaban şəhərtipli yaşayış yerinin altında dərin mağara tipli sığınacaqların, kəhrizlərin mövcudluğu da ilkin şəhər mədəniyyəti mənasında Nuhdaban-Nuhçıxan-Naxçıvan ehtimalını qüvvətləndirir.

Bütün bunlar Naxçıvanın ilkin şəhər mənasında beşminillik qədim tarixə malik olduğunu düşünməyə əsas verir. Ona görə də dünyadakı digər qədim yaşayış yerləri kimi, Naxçıvan şəhərinin də tarixini müəyyən edərkən arxeoloji tədqiqatlarla bərabər, mifologiyaya və toponimikaya dair materiallara da istinad etməyin, problemə kompleks yanaşmağın diqqət mərkəzinə çəkilməsi daha obyektiv yanaşma olardı.

***“Publika.az”***
***4 avqust 2016-cı il***

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 598